UOT 101.1

**Məhsəti Cəfərova**
**AMEA-nın Fəlsəfə İnstitutunun dissertantı**
**AZ1073, Bakı ş., H.Cavid pr., 115**
**E-mail: mahsati.cafarova@mail.ru**

# MÜASİR FƏLSƏFƏDƏ ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏTƏ YANAŞMA METODLARI VƏ DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ

**Xülasə:** Hazırda mədəniyyətin böyük auditoriya üçün nəzərdə tutulmuş forması olan kütləvi mədəniyyət geniş yayılmaqdadır. Kütləvi mədəniyyət mütəmadi olaraq dəyişir və insanların əksəriyyətinin mədəni tələbatını ödəyir. Buna görə də kütləvi mədəniyyətlə bağlı araşdırmalar aktuallıq kəsb edir. Araşdırmalarda kütləvi yanaşma metodları və diaqnostik qiymətləndirmənin əhəmiyyəti böyükdür. Diaqnostik qiymətləndirmədə anket sorğularının da rolu böyükdür.Problemə müxtəlif yanaşma metodlarından istifadə edilərək anket sorğularının keçirilməsi nəticəsində əldə olunan diaqnostik məlumatlar statistik cəhətdən təhlil edilir və proqnozlar tərtib olunur.

**Açar sözlər:** müasir mədəni nəzəriyyələr, elitar mədəniyyət, kütləvi mədəniyyət, diaqnostik qiymətləndirmə, anket sorğuları.

XX əsrin ortalarından mədəniyyətin böyük auditoriya üçün nəzərdə tutulmuş forması olan kütləvi mədəniyyət geniş yayılmağa başladı. Mütəmadi olaraq dəyişikliyə məruz qalan və insanların böyük əksəriyyətinin mədəni tələbatını ödəmək üçün nəzərdə tutulan kütləvi mədəniyyətin aktuallığı birbaşa olaraq iqtisadi amillərdən asılıdır. Müasir insanın həyatında mədəniyyət, xüsusilə də kütləvi mədəniyyət böyük rol oynayır. Klassik

mədəniyyət nümunələri ilə yanaşı bir çox janr və cərəyanların meydana gəlməsi kütləvi mədəniyyətin inkişafına rəvac verdi.

Müasir dünyada populyarlıq qazanan kütləvi mədəniyyət indisturial və iqtisadixarakter daşıyır, reklam vasitəsi ilə kütləvi mədəniyyəti tanıtmaq nəticəsində onlara olantələbat artır. Müasir texnologiyaların inkişafı sayəsində kütləvi informasiya vasitələrigeniş spektrdə fəaliyyət göstərməyə başladı və informasiya mədəniyyəti anlayışı meydanagəldi. İnformasiya mədəniyyəti isə böyük həcmdə informasiya mübadiləsi ilə xarakterizəolunur. Müasir mədəniyyət bir çox xüsusiyyətlərinə görə özündən əvvəlki mədənidövrlərdən əhəmiyyətli şəkildə fərqlənir. Bu isə ilk növbədə informasiyatexnologiyalarının inkişafı sayəsində kütləvi mədəniyyətin geniş vüsət alması ilə bağlıdır.Məşhur eston kulturoloqu, Moskva-Tartu semiotik məktəbin aparıcı nümayəndəsi Yuri Mixayloviç Lotman (1922-1993) elitar və kütləvi mədəniyyət arasındakı dialoqu "semosfer" adlandırdığı xüsusi rabitə sahəsinin köməkliyi ilə həyata keçirirdi. Lotmanın semosfer təbəqəsinə dilə yanaşı sosial-mədəni haqlar da daxildir.Elitar və kütləvi mədəniyyətin yalnız ən kiçik parçaları semosfer təbəqəsində üst-üstə düşür, digər hissələrin isə mədəni baxımdan şərhə və izaha ehtiyacı vardır. Semiosfera (semiotika məkanı) insanın ünsiyyət və anlayış mədəniyyəti ilə xarakterizə olunur. Lotmanın elmə daxil etdiyi bu terminin aşağıdakı əlamətləri vardır:

1. Məhdudiyyətlər;
2. Müxtəliflik;
3. Qeyri-müntəzəmlik;
4. Uyğunsuzluq;
5. Mürəkkəb sistem yaddaşı.

Müasir dövrdə incəsənətlə yanaşı mədəniyyətin digər sahələrində, fəlsəfədə, ədəbiyyatda özünə böyük tərəfdar toplamağa nail olan postmodernizm tənqiddən də xali deyildir. «Postmodernizm anlayışı əsasən iki mənada anlaşılır: mədəniyyət və ədəbiyyatın bütün üslub və imkanların sinkretik qarışığından ibarət müasir vəziyyəti; moderndən sonra deyil, onunla yanaşı meydana çıxan konseptual yanaşma, müxtəlif mərhələlərdə aktuallaşan xüsusi yaradıcılıq növü.

Rəhbərliyin ən ağıllıların və ya ən yaxşıların əlində olmasını ifadə edən Platonun irəli sürdüyü klassik elita nəzəriyyəsi elitar təbəqənin rəhbərliyinə əsaslanırdı. XX əsrdə klassik elitar nəzəriyyəsinin Vilfredo Pareto (1848-1923), Qaetano Moska (1857-1941)və Robert Mxels (1876-1936) məşhur nümayənələri meydana gəldi. Müasir elitarizm nəzəriyyəsi klassik elitarizm kimi empirik bazisə malik olmaqla yanaşı, elit cəmiyyətin müəyyən iqtisadi və siyasi quruluşları ilə bağlıdır. Müasir dövrdəəsasən aşağıdakı elita nəzəriyyələri mövcuddur:

- Demokratik elita nəzəriyyəsi;
- Sərvət nəzəriyyəsi;
- Sol liberal elita konsepsiyası;
- Elita plyüralizimi konsepsiyası.

Müasir dövrdə kütləvi mədəniyyətin əsas xüsusiyyətlərini nəzərdən keçirək:

- Bayağılıq - adətən ağır və yorucu iş günündən sonra fizioloji və psixoloji tarazlığın bərpası üçün insan əyləncəli tamaşalar, filmlər, bayağı və məzmunsuz mahnılar axtarır.

- Məzəlilik - bu əsasən sadə və yüngül emosiyalara müşaiyət olunur, bu nöqteyi nəzərdən də kütləvi mədəniyyət nümunələrində uzun-uzadı düşüncələrə qapılmaq mövcud olmur.
- Seriyalılıq- kütləvi mədəniyyət məhsulları çoxsaylı əhali üçün nəzərdə tutulduğu üçün böyük miqdarda istehlak edilir.
- Passiv qavrama - qavrayış üçün intellektual və emosional səy tələb olunmur.
- Kommersiya xarakteri - kütləvi mədəniyyət çərçivəsində yaradılan məhsullar adətən kütləvi satış üçün nəzərdə tutulur.

Adətən diaqnostik qiymətləndirmə hansısa bir problemi və ya konkret məqsəd üçün anket hazırlamaq və anket üçün məlumat toplanılmalıdır. Anketin keçirilməsi mərhələləri:

- Tədqiqatın predmetinin seçilməsi.
- Lazımi ədəbiyyatın xülasəsi.
- Fərziyyələr qurmaq.
- Tədqiqat proqramının seçilməsi.
- Bilavasitə məlumatların toplanması.
- Nəticələrin təhlili.
- Toplanmış məlumatlar əsasında nəticə.

Diaqnositk qiymətləndirmə zamanı mühüm və aparıcı mövqeyə malik olan anket və yaxud da sorğu müəyyən şəxsin və ya qrupun araşdırılacaq olan mövzu ilə əlaqədar olaraq müəyyən bir plana əsasən hazırlanmış olan suallardır. Heç şübhəsiz ki, anket araşdırmaçının məqsədinə uyğun olaraq münasib və etibarlı bir şəkildə hazırlanmalıdır. Anketi hazırlayan şəxs bu araşdıracağı məsələ barədəyetkin məlumata və praktik biliyə malik olmalıdır.Anket üçün hazırlanan suallar məzmun, forma və finksiya baxımından bir-birindən fərqlənir. “Anket — sorğusunu keçirmək uçun hər şeydən əvvəl anket tərtib etmək lazımdır ki, onun köməyi ilə lazım olan məlumatları toplamaq mümkün olsun. Anket — müəyyən tərzdə struktur cəhətdən təşkil olunmuş və hər biri tədqiqatın əsas vəzifəsi ilə məntiqi surətdə bağlı olan suallar yığımıdır.

Anketin tərtib edilməsi prosesi əslində tədqiqatın əsas hipotezasını suallar dilinə çevirməkdən ibarətdir. Bu çox mürəkkəb və olduqca çox zəhmətli, tədqiqatçı-sosioloqdan diqqətlə, səbirlə işləməyi, sualların tipləri haqqında yaxşı biliklərin olmasını, sualları dəqiq ifadə etməyi və onları müəyyən ardıcıllıqla düzməyi bacarmağı tələb edən əməliyyatdır.” (1)

Sorğu keçirilən zaman tədqiqatçı ilə tədqiqata cəlb olunan şəxs arasında yeganə ünsiyyət rolunu suallar oynamalıdır. Bu səbəbdən də sorğuda hazırlanan suallar səlis və aydın bir üslubda hazırlanmalıdır. Anket sorğusunun hazırlanması və reallaşdırılması zamanı anketin məzmunu, məqsədi və həmçinin sorğuya cavab verəcək olanların xarakterik xüsusiyyətləri və elmi səviyyələri müəyyən edilməlidir. Əslində anket sorğusunun hazırlanması göründüyü qədər də sadə deyildir. Bu sahədə böyük təcrübəyə malik olmaq diaqnostik qiymətləndirmənin düzgünlüyünə dəlalət edir. Anket sorğusunda suallara cavab verən şəxsin təhlükəsizliyi baxımdan əldə ediləcək məlumatların harada istifadə ediləcəyini bildirən bir açıqlama qoyulmalıdır.Həmçinin anketdə tərtib olunan suallar qruplaşma zaman ümumidən xüsusiyə doğru sıralanmalıdır.

Anket sualları hazırlanan zaman bəzi suallar ilkin sınaq məqsədi daşımalıdır, əsas qrup üçün suallar hazırlandıqda isə ilə anket sorğusundakı bu qəbildən olan əsassızsuallar təmizlənməlidir.“Sorğu blankının düzgün tərtib olunması, qeyri - dəqiq

məlumatların əldə olunmasına səbəb olur. Habelə anket sorğusunu keçirmək üçün аyл - ayrı seçilmiş qrupların hazırlanmaması ilkin informasiyanın əldə olunmasında təşkilatsızlıq yaradır. Bu və ya digər mərhələnin vaxtının uzanması tədqiqatın özünün aktuallığının itirilməsinə səbəb olur. Sosoloji tədqiqat planının struktur ünsürlərinə onun mərhə lələri öz forma və növlərinə görə fərqlənən elmi - tədqiqat və təşkilati - texniki prosedur və əməliyyatlar daxildir. Bütün bunlar, prosedur və əməliyyatların həyata keçirilməsi ardıcıllığına uyğun olaraq tədqiqat planında dörd blok üzrə qruplaşdırılır.”
(2, səh.282)

Anket sorğusunun həm üstün, həm də çatışmayan cəhətləri mövcuddur. Diaqnostik qiymətləndirmənin obyektivliyini və şəffaflığını təmin etmək üçün sorğunun müsbət və mənfi cəhətlərinə nəzər yetirmək lazımdır. Anketin texniki və iqtisadi üstünlükləri aşağıdakılardan ibarətdir:

- Anket sorğusu nəticəsində böyük kütlələrhaqqında qısa müddətdə rəy formalaşır vəbu çox vaxt tələb etmir;
- Anket sorğusu digər üsullardan fərqli olara çox xərc tələb etmir, bu da anket sorğusunu iqtisadi cəhətdən sərfəli olmasını təmin edir;
- Anket sorğusundakı suallara imzasız bir şəkildə cavab verildiyi üçüninsanlar çəkinmədən suallar cavab yazırlar.
- Anket sorğusunda cavab sualın altında konkret olaraq yazıldığı üçün suallara cavab verən tərəf seçim etməkdə çətinlik çəkmir.
- Anket sorğusunu hazırlamaq üçün az miqdarda materiala ehtiyac vardır.
- Anket sorğusu bütün yaşda olan adamlar üçün tərtib oluna bilər.

Bütün bu üstün cəhətlərlə yanaşı anket sorğusunun da çatışmayan cəhətləri vardır. Bu çatışmayan cəhətlər aşağıdakılardır:

- Anket sorğusundakı eyni sualı ayrı-ayrı adamlar müxtəlif mənada qavraya bilər və bu nüans da anketin çatışmazlığıdır.
- Anket sorğusundakı suallara verilən cavabların səmimi olması və bu suallara düşünülmüş şəkildə cavab verilməsi bir az şübhəlidir.
- Anket sorğusundakı açıq tipli suallara verilən cavabların bəzilər anlaşılmaz olur və bu cavabların başa düşülməsi çətinlik yaradır.

Mövzularına görə anket sorğuları müxtəlif ola bilər və demək olar ki, istənilən sahəyə aid anket sorğuları hazırlamaq mümkündür. O cümlədən də mədəniyyətin müxtəlif sahələrinə dair anket sorğuları tərtib oluna bilər. Qeyd edək ki, məhz bu anket sorğuları nəticəsində diaqnostik qiymətləndirməni reallaşdırmaq mümkündür. Bu baxımdan da anket sorğuları sosioloji tədqiqatlar içərisində mühüm mövqeyə malikdir. “Sosioloji tədqiqatların üç növünü fərqləndirmək lazımdır: axtarış, təsviri və analitik. Axtarış sosioloji tədqiqatların ən sadə növü olub, ən məhdud dairəli vəzifələrin həlli yollarının toplanmasına yönəlmişdir. Anket sorğusu 20-100 nəfəri əhadə edir və bu tədqiqat zamanı problemin dərindən öyrənilməsi baş verir. Təsviri tədqiqatlar sosioloji təhlilin daha mürəkkəb növü kimi çıxış edir. Onun köməyi ilə öyrənilən sosial obyekt haqqında bütöv təsəvvür yaradan empirik məlumatlar əldə olunur. Burada təhlil obyekti müxtəlif peşədən, yaş qrupundan, peşə səviyyəsindən olan insanları birləşdirən kollektivlər nəzərdə tutulur.” (3, səh. 10-11)

Ümimiyyətlə, anket sorğuları təkcə mədəniyyət barəsində deyil, müxtəlif ictimai mövzular barədə məlumat toplamaq üçün aparılır. Anketə cəlb olunana mövzular nə olursa olsun, məlumatın mənbəyi rolundaya ayrı-ayrı şəxslər və yaxud

da qruplar çıxış

edir. Bu faktı da unutmaq olmaz ki, ictimai rəy haqqında məlumat toplamağın sorğulardan da başqa təcrübə, müşahidə və s. kimi yolları davardır."İctimai rəy öz daxili məzmununa görə, əhatə dairəsinə görə əhalinin müxtəlif səviyyələrini təmsil edə bilər. Bumənada bütövlükdə xalqın ictimai rəyini, bu və ya digər sosial qrupun rəyini, müəyyən iş sahələrində çalışan kollektivlərin rəyini ayırmaq mümkündür. Belə fərqləndirmə ictimai rəyi əsasən kəmiyyət etibarilə səciyyələndirir. Aydın məsələdir ki, ictimai rəyin keyfıyyətaspekti də mövcuddur. Bu, onun ictimai inkişafın tələbatlarına nə dərəcədə uyğun gəlməsi ilə müəyyən olunur. İctimai rəyə verilən sosial qiymət öz obyektivliyi, mötəbərliyi baxımından birmənalı olmur. Bu halda ictimai rəyin əsasında dayanan mənafelərin tipi vəxarakteri həlledici əhəmiyyət kəsb edir. Bu o deməkdir ki, hər bir sosial subyekt hadisələri, prosesləri və problemləri ən əvvəl öz spesifik mənafeləri baxımından qiymətləndirir. Mənafelər müxtəlif olduğuna görə eyni bir hadisə, proses, problem müxtəlif cür qiymətləndirilə bilir." (3, səh. 98) Yuxarıda da qeyd etdiyimiz kimi qısa zaman kəsimində, az xərclə məqsədə uyğun faktlar toplamaq üçün sorğu metodunun oynadığı rol əvəzsizdir. Müasir dövrdə dövlət və qeyri-dövlət qurumları, siyasi partiyalar,universitetlər, banklar, firmalar, dərnəklər, səfirliklər, milli və beynəlxalq araşdırma şirkətləri müxtəlif məqsədlərlə anket sorğuları keçirdirlər. Əldə olunuan diaqnostik məlumatlar statistik cəhətdən təhlil edilir və bunun əsasında proqnozlar tərtib olunur.

**Ədəbiyyat:**


1. https://az.wikipedia.org/wiki/Anket.
2. Mustafayeva H.T. Sosiologiya fənnindən seminar məşğələlərinin tədrisinə dair metodik göstərişlər. Bakı, 2013.
3. Vahidov F. Q. .Ağayev T. B. Sosiologiya. Ali məktəblərüçündərsvəsaiti. Bakı: «Təknur» nəşriyyatı, 2008.



**Мехсети Джафарова**


**Методы подхода к элитарной и массовой культуре в современной философии и диагностическая оценка**

**Резюме**


В настоящее время массовая культура, являющаяся формой культуры, рассчитанной на большую аудиторию, получила широкое распространение. Массовая культура регулярно меняется и отвечает культурным потребностям большинства людей. Поэтому исследования, связанные с массовой культурой, актуальны. Методы массового подхода и диагностической оценки важны в исследовании. Анкеты также важны для диагностической оценки. Диагностические данные, полученные в результате опросов, подвергаются статистическому анализуи составляются прогнозы, с использованием различных подходов к проблеме.



**Ключевые слова:** современные теории развитой, элитарной культуры, массовой культуры, диагностические оценки, опрос.



**Mekhseti Djafarova**


**Methods of approach to the elite and popular culture in modern philosophy and diagnostic evaluation**

# Summary

Currently, mass culture, which is a form of culture designed for a large audience, is widely spread. Popular culture changes regularly and meets the cultural needs of most people. Therefore, research related to mass culture is relevant. Methods of mass approach and diagnostic evaluation are important in the study. Questionnaires are also important for diagnostic evaluation. Diagnostic data obtained from surveys are subjected to statistical analysis and forecasts are made using various approaches to the problem.

**Keywords:** modern cultural approaches, elite culture, mass culture, diagnostic evaluation, questionnaire.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 13.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.11.2018Məqalənin çapa qəbul olunma tarixi: 28.11.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:dosent Tamilla ƏhmədovaADMİU-nun Elmi Şurasının 22 dekabr 2018-ci il, 04 saylı qərarı ilə çap olunur**